# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 02 SENTYABR 2021-Cİ İL / № 32 (1250)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU




## Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu dövlətimizin başçısı tərəfindən Zəfər yolu adlandırılıb.**



## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Qarabağ" hotelinin açılışında iştirak ediblər*

**Avqustun 29-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hotelinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

**Qeyd edək ki, 1980-ci ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Şuşa şəhəri müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri nəticəsində Ermənistanın işğalından azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlandı. Müasir səviyyəyə çatdırılan hoteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Binada restoran və bar qonaqların ixtiyarına veriləcək. Hoteldə işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı yaradılıb. Hotel ərazisində avtomobil dayanacağı da inşa edilib. Hotelə yaxın olan parkın ərazisi abadlaşdırılıb, fəvvarələr qurulub və park işğaldan əvvəlki görkəminə qaytarılıb.**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.**

Birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanının videogörüntüsünü paylaşıb. Paylaşımda bu sözlər qeyd olunur: "İşğaldan azad olunmuş ərazilərə növbəti səfərimiz. Şuşaya gedərkən".



**Avtomobildə çəkilən videogörüntüdə Prezident İlham Əliyev deyir: "Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır".**

Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunur. Baqaj konveyerlərinin, qeydiyyat və digər sistemlərin işə salınması nəzərə alınmaqla, sentyabr ayının sonuna qədər sərnişin terminalının istismara verilməsi işləri tam başa çatdırılacaq.

Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Aeroport istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcək. Burada perron da inşa edilib. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatdırılıb. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq.

Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə terminalın qarşısında 150 avtomobil üçün nəzərdə tutulmuş dayanacaq inşa olunub. Bundan başqa, Füzuli Beynəlxalq Hava Limanına giriş üçün yolun tikintisi, həmçinin aeroportun ərazisində yaşıllaşdırma işləri aparılır.

**Prezident İlham Əliyevin tapşırığı ilə Füzuli rayonunda belə bir qısa müddətdə bu cür ən müasir standartlara cavab verən Beynəlxalq Hava Limanının inşasının həyata keçirilməsi sözün əsl mənasında misli görünməmiş hadisədir və bu bir daha Azərbaycan Prezidentinin mənfur düşməndən azad olunmuş torpaqlarımızda böyük yenidənqurma və tikinti işlərinin aparılması barədə fikirlərinin bariz nümunəsidir.**



### Səttar Möhbalıyev: "Şəhid ailələrinin və qazilərin sosial şəraitinin yaxşılaşdırılması işləri ardıcıl və planlı şəkildə həyata keçirilir"

BAX SƏHİFƏ: 5

## *Azərbaycanda koronavirus infeksiyasına 3845 yeni yoluxma faktı qeydə alınıb*




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3845 yoluxma faktı qeydə alınıb, 3876 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 41 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 428 min 736 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 370 min 2 nəfər müalicə olunaraq sağalıb, 5 min 677 nəfər vəfat edib. Aktiv xəstə sayı 53 min 57 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 min 102, bu günə qədər isə ümumilikdə 4 milyon 481 min 39 test icra olunub.**

### "Ağbulaq" İstirahət Mərkəzində təşkil olunan ənənəvi "Yay məktəbləri" başa çatıb

BAX SƏHİFƏ: 5

### Pandemiya dövrünün "həftəsonu" problemi

BAX SƏHİFƏ: 5

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

### Əməyin təhlükəsizliyi və davamlı inkişafın təmin edilməsi yolunda əhəmiyyətli bir qələbə

BAX SƏHİFƏ: 7

### Müəllimə ciddi şəkildə diqqət ayırmaq lazımdır

BAX SƏHİFƏ: 7

# Şuşada Bülbülün ev-muzeyinin bərpadan sonra açılışı olub



**Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün avqustun 29-da Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, görkəmli musiqiçi 1982-ci ildən ev-muzeyi kimi fəaliyyət göstərən bu evdə anadan olub və uşaqlıq illərini burada keçirib.

Ümummilli lider Heydər Əliyevin göstərişi əsasında Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin ev-muzeyinə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib.

**Muzeydə Bülbülün uşaqlıq illərinə aid şəkillər, şəxsi əşyalarından bəziləri, o cümlədən onun qavalı da nümayiş etdirilirdi. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yaxın sənəd toplanmışdı. Burada, həmçinin Azərbaycanda yeni vokal məktəbinin yaradılmasında, xalq musiqisinin öyrənilməsi və təbliğində Bülbülün çoxillik səmərəli yaradıcı işini təsdiq edən materiallar nümayiş etdirilirdi.**

Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb.

Bu il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı ev-muzeyini ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən muzeydə aparılan təmir-bərpa və yenidənqurma işləri artıq başa çatıb.

**Bərpa işləri zamanı eyvana çıxan divarlarda suvaq altından daş üzərində yonulmuş ərəb əlifbası ilə iki yazı və günəş simvolunu əks etdirən təsvir aşkar olunub. Yazıların birində Qurandan ayə, digərində isə evin tikilmə tarixi qeyd edilib. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilib. Bina tipoloji mənsubiyyətinə görə Qarabağ və Azərbaycanın tarixi yaşayış binalarının xüsusiyyətini özündə əks etdirir, otaqların daxili quruluşu Azərbaycanın ənənəvi evlərinə xasdır.**

Şuşa şəhərinin işğalı zamanı ev yararsız hala salınıb, yükdaşıyıcı divarlarında çatlar əmələ gəlib və divarlar çöküb. Bərpa zamanı bütün yükdaşıyıcı divarların bünövrəsi möhkəmləndirilib, çat olan divar hissələrində yenidənqurma işləri aparılıb. Binanın daxili otaqlarında çürümüş taxta döşəmələr yeniləri ilə əvəz olunub. Dam örtüyü, qapı və pəncərələri çürüdüyündən və istismara yararsız halda olduğundan, binanın tarixi görkəmini qorumaq şərti ilə yenisi ilə əvəz edilib.

Bülbülün ev-muzeyinə məxsus həyətyanı sahə ilkin görkəmi saxlanılmaqla bərpa olunub.

Hazırda binada Bülbülün muzey ekspozisiyası qurulub. Ev-muzeyinin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldılıb.

**Şuşa şəhəri işğalda olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü isə erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.**

# Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşada büstü açılıb



**Avqustun 29-da Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Məlumat verildi ki, Molla Pənah Vaqifin 1957-ci ildə tuncdan hazırlanan büstü 1958-ci ildə Cıdır düzünə yaxın ərazidə qəbirüstü abidə kimi yerləşdirilib, daha sonra 1976-cı ildə şairin Şuşadakı evinin yaxınlığına köçürülüb. 1982-ci ildə Vaqifin məqbərəsinin açılışından əvvəl büst və onun ətrafı təmir edilib, abidənin postamenti dəyişdirilib. Büst 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən, abidə bu il onun müəllifi, Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən qurulub.

**Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan büst öz əvvəlki yerinə qaytarılaraq Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb.**

# Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışı olub



**Avqustun 29-da Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər, görülən işlərlə tanış olublar.

Qeyd edək ki, 1982-ci il yanvarın 14-də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verdi və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirildi.

Muzey-məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilmişdi. Dördkünc quruluşa malik və mərmərlə bəzədilən türbənin inşası məsələsi həll edilərkən ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınaraq, Azərbaycanın qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə edilmişdi. Məqbərənin inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilmişdi. Türbənin daxilində Molla Pənah Vaqifin heykəltəraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdu. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edildi. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verildi.

**Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. İşçi layihələr əsasında xarici mütəxəssislər tərəfindən təyin edilən xüsusi kimyəvi materiallarla elementlərin konstruktiv bərpa işləri yerinə yetirilib, korroziyaya qarşı əlavə tədbirlər görülüb. Həmçinin abidənin dam örtüyü yenidən qurulub. Topoqrafiya işləri nəticəsində əldə edilən məlumatlar üzrə, o cümlədən ərazidə axtarış işləri keçirməklə qırılmış, dağılmış üzlük hissələrin əldə edilməsi ilə birlikdə abidənin ilkin ölçülərinin bərpası məqsədilə memarlıq işçi layihələri hazırlanıb. Bu layihələr əsasında isə fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənib və abidənin tarixi görkəmi bərpa edilib.**

Bundan əlavə, ərazidən tapılan tökmə alüminium şəbəkə nümunəsi əsasında hazırlanmış işçi layihələr üzrə bütün şəbəkə və dekorlar, o cümlədən giriş qapısı tökmə üsulu ilə alüminium materialdan tarixi ölçüləri qorunmaqla hazırlanıb, Şuşa şəhərinə gətirilərək layihə üzrə quraşdırılıb. Salonun mərkəzində qəbir daşı üzərində qara mərmərdən sənduqə qoyulub, ilkin formanın bərpası nəzərə alınmaqla büst ağ mərmərdən işlənib hazırlanaraq quraşdırılıb.

**Abidənin hər detalında tarixi görkəm qorunub saxlanılıb. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub, yağış suları üçün drenaj xətləri və elektrik xətləri çəkilib quraşdırılıb. Landşaftda istinad divarları və meydança tarixi görkəmi çərçivəsində qranitlə üzlənib. Eyni zamanda, ətrafda o dövrün şəkillərində əks olunduğu kimi, müxtəlif növ qızılgül kolları əkilib.**

# Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olublar.**



Dövlətimizin başçısına və birinci xanıma burada görüləcək işlər barədə məlumat verildi.

Qeyd edək ki, görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhərində Ermənistanın işğalınadək fəaliyyət göstərib.

**Erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan yalnız 100-ə yaxını salamat qalıb, qalanı məhv edilib.**

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu tərəfindən ev-muzeyində aparılacaq işlər üzrə layihə hazırlanıb.

**Ev-muzeyində həyata keçiriləcək işlərdən sonra 1992-ci ildə muzeyin Bakıya aparılmış eksponatlarının burada yerləşdirilməsi nəzərdə tutulur. Bunlar Üzeyir Hacıbəylinin fotoşəkilləri, məktubları, əsərlərinin partituraları və şəxsi əşyalarıdır.**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Üzeyir Hacıbəylinin heykəlinin açılışında iştirak ediblər



**Avqustun 29-da Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı heykəlin üzərindəki örtüyü götürdü.

Qeyd edək ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb.

Məlumat verildi ki, heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb.

**Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tərəfindən hazırlanıb.**

# Şuşada “Otel və Konfrans Mərkəzi”nin təməli qoyulub



**Avqustun 29-da Şuşada “Otel və Konfrans Mərkəzi”nin təməli qoyulub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev “Otel və Konfrans Mərkəzi”nin təməlini qoydu.

Qeyd edək ki, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Qədim dövrdə Şuşa Böyük İpək Yolunun əsas qovşaqlarından biri idi. Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaraylar tikilirdi. Karvansaray konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu “Otel və Konfrans Mərkəzi” müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib.

**Mərkəz 2,8 hektar ərazini əhatə edəcək. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq ediləcək. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunacaq. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəylinin ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanıb. Beş mərtəbədən və 150 nömrədən ibarət “Otel və Konfrans Mərkəzi”ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaq.**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər

**Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər.

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

**-Hörmətli mərasim iştirakçıları.**

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.**

Vaqifin məqbərəsi bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda erməni vandalizminə məruz qalmışdır. Bu gün isə məqbərə tam bərpa edilib və dünən məqbərənin ikinci açılışı olmuşdur.

Bildiyiniz kimi, Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını ulu öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır.

**Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı. Çünki Şuşanın strateji əhəmiyyəti, əlbəttə ki, bizim üçün itirilmiş oldu və düşmən bundan istifadə edərək, ondan bir neçə gün sonra - 1992-ci ilin mayında Laçını da işğal etdi. Ondan bir il sonra - 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdi və beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında coğrafi bağlantı yaradıldı. Bizim məğlubiyyətimizin qaçılmaz olması göz qabağında idi, nəzərə alsaq ki, o vaxt Azərbaycanda hərc-mərclik dövrü idi, nizami ordu yox idi, vətəndaş qarşıdurması baş vermişdi.**

Şuşanın itirilməsi digər rayonların itirilməsinə təkan vermişdi. Ancaq biz Azərbaycan xalqı olaraq heç vaxt bu işğalla barışmaq fikrində deyildik. İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, işğal edilmiş bütün torpaqları, o cümlədən Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik.



**Bildiyiniz kimi, danışıqlar prosesi 30 ilə yaxın davam etdi, bunun heç bir nəticəsi olmadı. İndiki hadisələrin gedişatı, İkinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi. Çünki bizi, azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyirdilər. Bu vəziyyəti, yəni, dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar. Bizim isə tam başqa fikrimiz var idi və mən bunu heç vaxt gizlətmirdim. Deyirdim ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, biz öz ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyik. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqı bizə tanıyır. BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, tarixi ədalət bu haqqı bizə verib. Biz buna nail olduq.**

Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır. Müharibədən sonra mən ilk dəfə Şuşaya bu il yanvarın 14-də gəlmişdim. Bu tarix də təsadüfən seçilmədi. Çünki o tarixdən 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz yanvarın 14-də mənim buraya gəlməyimin çox böyük rəmzi mənası var idi. Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. Vaqifin içəridəki barelyefini, sinə daşını sökmüşdülər. Yəni, onlara xas olan vandalizm törətmişdilər, necə ki, azad edilmiş bütün başqa torpaqlarda biz bunun şahidiyik. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif Poeziya Günlərinə start veririk. Vaqif Poeziya Günləri də bərpa edildi, "Xarıbülbül" festivalı da bərpa edildi. Bu ilin may ayında biz çox böyük coşqu ilə bu festivalı keçirdik və bu tarixi bərpa etdik.

**İlk səfərim çərçivəsində Şuşanın bərpası ilə bağlı bütün lazımi göstərişlər verildi və yanvar ayından bu günə qədər - 7 ay ərzində artıq çox böyük işlər görülüb. Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər. Bəli, şəhər hələ ki, dağılmış vəziyyətdədir. Çünki ermənilər nə qədər çalışalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb.**

Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq mayiyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı.

Ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mənim tərəfimdən mərkəzi meydanda qoyuldu. Dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını biz qeyd etdik. Polad atasının evini bərpa etdi, indi çox gözəl muzey yaradılmışdır. Dünən "Qarabağ" hoteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdı. İşğal dövründə "Qarabağ" hoteli nə gündə idi, onu biz işğaldan sonra görmüşdük. Cəmi iki mərtəbəsi işləyirdi, nə su var idi, nə işıq var idi. Bərbad vəziyyətdə idi, dağılmış vəziyyətdə idi. O kadrlar var. O da bərpa edildi və hesab edirəm ki, bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır.

Yeni otel beşulduzlu olacaq. Orada 150 otaq olacaq. Hazırda Şuşada "Qarabağ" və "Xarıbülbül" otellərində 150 otaq mövcuddur, 300 otaq, böyük konfrans zalı və tədbirlər üçün yerlər olacaqdır. Beşulduzlu otelin yeri də mənim tərəfimdən seçildi. Mənfur düşmən həmin yerdə dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulmuşdu və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi.

**Beşulduzlu otel gözəl yerdə inşa ediləcək. Ən önəmli tədbir dünən yeni yaşayış kompleksinin təməl daşının qoyulması idi. Bu yaşayış kompleksi Şuşanın baş planı əsasında inşa ediləcək. Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur - üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar.**

Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik.

Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq.

İşğal dövründə bir çoxlarımız - həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq.

**Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik.**

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

Sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev, Xalq şairi Nəriman Həsənzadə, Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-yazıçı İlqar Fəhmi, Xalq yazıçısı Elçin Əfəndiyev və başqaları çıxış ediblər.

**Çıxışlardan sonra Vaqif Poeziya Günlərinin tarixini əks etdirən videoçarx nümayiş olundu.**

**Sonra gənc musiqiçilər "Qarabağ şikəstəsi"ni ifa etdilər.**

**Daha sonra tədbirin iştirakçıları və şuşalılarla xatirə şəkilləri çəkdirildi.**

## Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşa şəhərinin baş planı təqdim olunub



**Avqustun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşa şəhərinin baş planı təqdim olunub.**

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

**Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb.**

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın.

Baş plan hazırlanarkən, şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək.

**Sonra Azərbaycan Prezidenti İlham Əliyev 1-ci məhəllənin təməlini qoydu.**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada təşkil edilən sərgilərə baxıblar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, əvvəlcə, Şuşa Rəsm Qalereyasında "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" adlı sərgi ilə tanış oldular.

Qeyd edək ki, Qarabağ Azərbaycan incəsənətinin və mədəniyyətinin mərkəzi kimi qədim tarixə sahibdir. İşğal dövründə talan edilən muzeylərdə Azərbaycana məxsus qiymətli tarix və mədəniyyət nümunələri, dünyada məşhur Azərbaycan xalçaları və Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, həmçinin digər dəyərli eksponatlar olub. Məhv edilən həmin xəzinələr təkcə Azərbaycanın yox, həm də bütün dünya mədəniyyətinin nümunələri idi.



**Sərgidə nümayiş olunan rəsm və heykəltəraşlıq nümunələri ziyarətçiləri sevincli və kədərli, real və fantastik, açıq və gizli, rəngarəng və monoxrom dünyaya səyahətə aparır. Burada nümayiş etdirilən əsərlərdə əsas ilham mənbəyi Qarabağdır. Azərbaycanın tarixi diyarı olan Qarabağ uzun illər ərzində özünəməxsus atmosferi ilə fərqli nəsillərdən və cərəyanlardan olan rəssamların və heykəltəraşların dünyagörüşünə böyük təsir edib.**

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən sərgidə Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Nadir Abdurrəhmanov, Mikayıl Abdullayev, Ucal Haqverdiyev, Müseyib Əmirov və Azərbaycanın digər görkəmli rəssamlarının əsərləri yer alıb. Sərgidə Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzularına geniş yer verilib. Altmışdan çox əsərin nümayiş olunduğu sərgidə Xalq rəssamı Altay Hacıyevin "Məclisi-üns", Xalq rəssamı Səttar Bəhlulzadənin "Yuxarı Daşaltı", Əməkdar rəssam İnna Kostinanın "Qarabağın zənginliyi", Leyla Əliyevanın "Xarıbülbül" əsərləri, Faiq Hacıyevin "Qarabağ atı", Orxan Nəbizadənin "Qarabağ gözəli" kimi heykəltəraşlıq nümunələri və digər əsərlər nümayiş olunur.

***

**Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgisi ilə tanış olublar.**

# AHİK sədri həmkarlar ittifaqlarının Nabrandakı sağlamlıq-istirahət ocaqlarındakı şəraitlə maraqlanıb



**Avqustun 27-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Xaçmaz rayonunun Nabran qəsəbəsində yerləşən həmkarlar ittifaqlarına məxsus sanatoriya-kurort müəssisələrində istirahət üçün yaradılan şəraitlə tanış olub, dincələnlərlə söhbətlər apararaq istirahətləri ilə maraqlanıb.**



Azərbaycan Respublikası Turizm və Ekskursiyalar Şurasının **"Xəzər" İstirahət Mərkəzinə** baş çəkən S.Möhbalıyev burada istirahətə gələnlərin qaldığı korpus otaqlarını və kottecləri gəzib, onların dincəlməsi üçün yaradılmış şəraitlə yaxından tanış olub, yeməkxanaya baxış keçirib. AHİK sədri Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş xüsusi karantin rejimi qaydalarına əməl olunma şəraiti ilə də maraqlanıb.

Bildirilib ki, istirahət mərkəzi müntəzəm olaraq xüsusi məhlulla yuyularaq dezinfeksiya edilir, işçilərə və istirahət edənlərə gigiyena qaydalarına riayət olunmasının, sosial məsafənin saxlanılmasının vacibliyi, qapalı məkanlarda tibbi maskalardan istifadə edilməsinin zəruriliyi izah olunur, müvafiq tövsiyələr verilir. İstirahətə gələnlərdən koronavirus əleyhinə vaksinasiya olunmaları (iki dozada) barədə COVID-19 vaksin sertifikatı tələb olunur.

Sədr son zamanlar ölkədə yoluxanların sayının artdığını, buna görə də virusdan qorunmaq üçün tələb olunan bütün qaydalara əməl olunmasının vacibliyini bildirib.

Sonra AHİK sədri mərkəzdə istirahət edən insanlarla söhbətləşib, istirahətləri ilə maraqlanıb, fikirlərini və təkliflərini öyrənib.

**S.Möhbalıyev Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının "Ülfət" İstirahət Mərkəzindəki vəziyyətlə də tanış olub. 2010-cu ildə inşa olunan istirahət mərkəzi dənizdən bir kilometr məsafədə yerləşir. Burada kottеclər və üç ikimərtəbəli istirahət korpusu qonaqların istifadəsindədir. Mərkəzdə eyni vaxtda 96 nəfər, mövsüm ərzində isə 1000 nəfərə yaxın insanın istirahət etməsi üçün hər cür şərait yaradılıb.**

AHİK sədri Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının **"Təhsil" İstirahət Mərkəzinə** də baş çəkib. 2013-cü ilin iyun ayında istifadəyə verilən istirahət kompleksi 10 hektardan artıq ərazini əhatə edir. Buraya üçmərtəbəli yaşayış korpusu, kottеclər, yeməkxana, idman zalı, futbol və voleybol meydançaları, açıq və qapalı üzgüçülük hovuzları, ilkin tibbi yardım otağı, internet-klub, konfrans zalı və digər tikililər daxildir. Mərkəzdə eyni vaxtda 265 nəfər istirahət edir. Dörd tərəfdən meşə massivi ilə əhatə olunan istirahət mərkəzinin ərazisindən keçən çay və ərazinin biomüxtəlifliyinin qorunub saxlanması buranı istirahət üçün əlverişli məkana çevirir. Ümumilikdə mövsüm ərzində burada həmkarlar ittifaqının 1500 nəfərə yaxın üzvü dincəlir. İstirahət mərkəzinə baxış keçirən sədr burada yaradılmış şəraitlə tanış olub, texniki təhlükəsizlik qaydalarına və təmizliyə ciddi əməl olunmasını tapşırıb.

**İstirahət edənlərlə söhbətində və jurnalistlərə müsahibəsində AHİK sədri S.Möhbalıyev bildirib ki, ölkə vətəndaşlarının sağlamlıqlarının qorunması, istirahətinin təşkili dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir: "Bu məqsədlə ölkədə ildən-ilə sağlamlıq və istirahət mərkəzlərinin sayı artırılır, dövlətimiz tərəfindən insanların rahat şəkildə istirahət etməsi üçün hər cür şərait yaradılır. Bu sahədə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və onun üzv təşkilatları üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırlar. Hər il həmkarlar təşkilatlarının xətti ilə minlərlə vətəndaşımız öz ailələri ilə Azərbaycanın dilbər guşələrində istirahət etmək imkanı qazanır. Biz istirahət mərkəzlərindəki şərait, obyektlərin necə saxlanılması, texniki təhlükəsizlik qaydalarına riayət, xidmət səviyyəsi ilə daim maraqlanırıq. İstəyirik ki, gələn qonaqlar buradan məmnun ayrılsınlar, yaradılmış şəraitdən razı qalsınlar. Bizim əsas istəyimiz də budur. Mən burada istirahət edənlərlə söhbətlərim zamanı koronavirusdan qorunmaq üçün gigiyenik qaydalara əməl etmələrini xüsusi olaraq tövsiyə etdim. Bu, onların və yaxınlarının sağlamlığını qorumaq üçün vacibdir. Bizim istirahət mərkəzlərimizdə yüzlərlə vətəndaşımız daimi və mövsümi işlərlə təmin edilib, bu da məşğulluğun təmin olunmasına mühüm töhfədir".**



S.Möhbalıyev qeyd edib ki, bu gün yüksək dövlət qayğısı nəticəsində AHİK-in balansında olan bütün istirahət mərkəzləri yenidən qurulur, müasir tələblərə uyğunlaşdırılır, istirahət üçün geniş imkanlar yaradılır. "Təhsil", "Ülfət", "Rabitəçi" və digər istirahət mərkəzlərində yeni korpusların tikilməsi nəzərdə tutulur. "Xəzər" İstirahət Mərkəzinin bir hissəsində məcburi köçkünlər yerləşib. Onlar öz yurdlarına qayıtdıqdan sonra burada əsaslı təmir-bərpa işlərinə başlanacaq.



**AHİK sədri bildirib ki, işçilərin istirahəti, əmək qabiliyyətinin bərpası, müalicəsinin təşkili, sağlamlığının qorunması və möhkəmləndirilməsi, bu məqsədlə verilən məzuniyyət hüququnun təmin edilməsi, məzuniyyət dövründə asudə vaxtın daha səmərəli və mənalı təşkili üçün şəraitin yaradılması həmkarlar ittifaqlarının daim diqqət mərkəzində olub. Bu gün ölkəmizin səfalı guşələrində onlarla istirahət mərkəzi, sanatoriya-kurort müəssisəsi, sağlamlıq düşərgəsi fəaliyyət göstərir. Hər il həmkarlar ittifaqlarının yüzlərlə üzvü ailələri ilə birlikdə yollayışlarla təmin edilir, onların normal istirahətləri üçün hər cür şərait yaradılır. Bu da, təbii ki, ittifaq üzvləri tərəfindən rəğbətlə qarşılanır və onların daha səmərəli fəaliyyət göstərə bilmələri üçün stimul yaradır.**












# Səttar Möhbalıyev: *“Şəhid ailələrinin və qazilərin sosial şəraitinin yaxşılaşdırılması işləri ardıcıl və planlı şəkildə həyata keçirilir”*

**“İstər Birinci Qarabağ, istərsə də 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəman oğullarımızın ailələri, valideynləri, yaxınları, həmçinin hər iki müharibədə əlil olmuş şəxslər, veteranlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar. Torpaqlarımızın bütövlüyü uğrunda vuruşanlara, onların ailələrinə qayğı göstərməsi ənənəsinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Onlara mənzillər və avtomobillər verilir, işlə təmin olunur, digər problemləri aradan qaldırılırdı. Bu ənənəni Ümummilli Liderin müzəffər davamçısı cənab İlham Əliyev də ləyaqətlə davam etdirir”.**

Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında zəfərlə sona çatan Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq dastanıdır: “Xalqımızın dəmir yumruq kimi birləşməsi qələbəmizi təmin etdi. Bu gün şəhidlərimiz müqəddəs and yerimiz, qazilərimiz, ümumiyyətlə, bütün müharibə iştirakçıları cəmiyyətimizdə böyük nüfuz sahibidirlər. Bütün dünya, Ali Baş Komandan başda olmaqla, Azərbaycan hərbçilərinin qəhrəmanlıqlarından bəhs etdi. Vətən müharibəsində strateji və taktiki hərbi əməliyyatlarımız dünya hərb tarixində yeni bir səhifə açdı. Müharibədə iştirak etmiş hər bir şəxs qələbəmizin bir parçasıdır. Cənab Prezidentin sərəncamları ilə onlar ordenlərə, medallara, digər təltiflərə layiq görüldülər. Bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin diqqət və qayğısıdır”.

**“Şəhid ailələrinin və müharibə əlillərinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ardıcıl və planlı şəkildə həyata keçirilir. Avqustun 26-da - hələ müharibənin başa çatmasından bir il keçməmiş şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına dövlət tərəfindən 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olundu. Təqdimetmə mərasimində cənab Prezident İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsən iştirakı onların bu məsələyə nə qədər diqqət yetirdiklərinin bariz nümayişidir. Dövlət başçımız şəhid ailələri ilə, qazilərlə görüşdü, hərbçilərimizin qəhrəmanlıqlarından bir daha söz açdı. Görünən odur ki, dövlətimiz həmişə onların yanındadır, bütün problemlərinin həlli istiqamətində əlindən gələni edir.1997-ci ildən bu günə kimi şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev verilib. Dünyanın heç bir yerində Azərbaycanda olduğu kimi bu cür sosial layihələrin icrasına diqqət yetirilmir. Bu, cənab Prezidentin humanist xarakterli siyasi fəaliyyətinin tərkib hissəsidir. Dövlət başçısının bu ilin yanvar ayında imzaladığı Sərəncamla bu sahədə yeni proqramlar təsdiq edilib. Belə ki, 2021-2025-ci illərdə şəhid ailələri üçün 11 min mənzil və fərdi ev inşa olunacaq”, - deyə AHİK sədri vurğulayıb.**

S.Möhbalıyev qeyd edib ki, dövlətimizin diqqət və qayğısı sadaladıqlarımla məhdudlaşmır, şəhid ailələri və veteranlar işlə təmin olunur, özünüməşğulluq proqramına, ictimai işlərə cəlb edilir, onlara reabilitasiya xidmətləri göstərilir, həmçinin yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir, yeni nəsil protezlərlə təmin edilir.

**“Şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin, avtomobillərin təqdimolunma mərasimində çıxışı zamanı cənab Prezident Ermənistanın indiki halını çox gözəl təsvir etdi. Bildirdi ki, Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Həqiqətən də bunlar heç sərhədlərini belə qoruya bilmirlər, təhlükəsizliklərini təmin edə bilmirlər, müstəqil iqtisadiyyata malik deyillər. Özgə torpaqlarında quraşdırılan bu dövlət həmişə başqa ölkələrin əlaltısı olub, siyasi məqsədlər üçün ortaya atılıb. Onların işğal siyasətinin qurbanı elə özləri olublar. Başlarına enən dəmir yumruğun təsirindən xislətlərinə çökmüş işğal siyasəti bir daha çətin yadlarına düşə”, - deyə Milli Məclisin deputatı fikrini tamamlayıb.**

*Təşəkkür*

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim,**

Sizə müraciət ünvanlayaraq heç bir yerdən gəlirim olmadığı üçün ailəmizin çətin vəziyyətdə olması ilə əlaqədar bizə maddi köməklik göstərilməsini xahiş etmişdim. Müraciətimizə müsbət cavab verərək göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun.

**Lalə QULİYEVA**

***

**Hörmətli Səttar müəllim,**

Mən könüllü olaraq İkinci Qarabağ müharibəsində iştirak etmişəm. 44 günlük müharibədə qəlpə yarası və müxtəlif xəsarətlər almışam, II qrup Vətən müharibəsi əliliyəm. Müharibədə olduğum dövrdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən diqqətdə saxlanmışam. Mənə həm cəbhə bölgəsində olduğum dövrdə, həm də müharibədən sonra müalicə olunduğum ərəfədə maddi köməklik edilib. Mətbuatdan oxuduğum məlumatlara əsasən, Azərbaycan həmkarlar ittifaqları “YAŞAT” Fonduna, eləcə də “Silahlı Qüvvələrə Yardım Fondu”na həmişə maliyyə dəstəyi göstərmişdir. Sizin rəhbərliyiniz ilə görülən bu işlər bir qazi kimi məni çox sevindirir.

**Səid İSKƏNDƏROV,**
**“Azərpoçt” MMC-nin Poçt Daşıma Mərkəzinin əməliyyatçısı, Vətən müharibəsi əlili**

# Pandemiya dövrünün “həftəsonu” problemi



**Dövlət büdcəsindən maliyyələşən müəssisələrin əksəriyyəti istisna olmaqla, bir çox özəl təşkilatlarda çalışanların iş həftəsi bəzən şənbə, hətta bazar günlərinə qədər uzadılır. Həftəsonları ictimai nəqliyyatın fəaliyyəti dayandırıldığından onlar işə və ya işlə əlaqədar olaraq hansısa ünvana (ünvanlara) getmək üçün taksi xidmətindən istifadə etmək məcburiyyətində qalırlar.**

Bu isə nəzərdə tutulmamış əlavə xərc deməkdir. Bəzi hallarda bu xərc vətəndaşın aylıq gəlirinin yarısından çoxu olur. İctimai nəqliyyatın həftədə iki gün işləməməsi, əhalinin cibinə dəyən ziyan pandemiyaya yoluxanların sayının azaldılmasına müsbət təsir göstərirmi?

Millət vəkili Fazil Mustafa qeyri-iş günlərində ictimai nəqliyyatın işləməsinə qoyulan qadağanın bir o qədər də səmərəli nəticələr vermək iqtidarında olmadığını bildirdi: -”Dəfələrlə söyləmişəm, bir sıra qərarlar var ki, onları hökmən əhalinin real durumunu dəqiq araşdıraraq qəbul etmək lazımdır. Bazar günləri yarmarkaya alış-veriş etməyə gedənlər, günəmuzd işləyən fəhlələr, xadimələr, avtomobilsiz jurnalistlər, müəllimlər, həkimlər, tibb bacıları, sadə vətəndaşlar onsuz da aşağı səviyyədə olan gəlirlərinin əhəmiyyətli qismini nə üçün taksi xidmətinə ayırmalıdırlar? Bu, pandemiya dövründə əhalinin daha çox yoxsullaşmasına səbəb olan amildir. Axı bu qərarın ağlabatan bir əsaslandırılması da yoxdur. Şənbə, bazar günləri ictimai nəqliyyatın işləməsi, əksinə, pandemiyanın yayılmasına mane olan amildir. Bu baxımdan bildirirəm ki, sərt yanaşmadan imtina edilməlidir və həftəsonu bütün ictimai nəqliyyatın fəaliyyəti bərpa edilməlidir.

**Azərbaycan Həkimləri İctimai Birliyinin sədr müavini Aydın Əliyev də şənbə, bazar günləri ictimai nəqliyyatın əsassız olaraq işləməməsini bildirib: “Çörəkpulu qazanmaq ümidi ilə evindən çıxıb işinin dalınca getmək istəyən, yollarda, bu istidə boynunu büküb saatlarla nəqliyyat vasitəsi gözləyən insanlara əziyyətdir. Taksilər də yolun ortasında saxlayıb onları götürmək məcburiyyətində qalır. Bu isə şəhərdə ciddi tıxac yaradır.**

“Şənbə, bazar günləri ictimai nəqliyyatın işləməməsi qərarı səhvdir və təcili ləğv edilməlidir. Bu addımın artıq təhlükəsizlik əhəmiyyəti qalmayıb, əksinə, sosial zərər yaradır”,- deyən iqtisadçı Samir Əliyev problemləri sadaladı.

*1. Taksilərə adətən 4 sərnişin götürürlər ki, onlar da avtobusdan fərqli olaraq bir-birinə daha yaxın məsafədə otururlar.*

*2. Gediş haqqı dəfələrlə baha başa gəlir. Bu isə həmin günlər işə gedənlər, o cümlədən vaksinləşmədə iştirak edən tibb bacıları üçün əlavə xərcdir.*

*3. Tıxaclar yaranır. Şəhər yerlərində tıxacların qarşısının alınması yollarından biri də ictimai nəqliyyatın səmərəli işləməsidir. Bizdə isə onsuz da səmərəli işləməyən nəqliyyat həftəsonu tamam dayanır. “1 manatlıq” taksilər hesabına tıxac yaranır. Təsəvvür edin, 40 nəfər aparan 1 avtobus əvəzinə 10 dənə minik maşını xidmət göstərir. Üstəgəl, həftəsonları şəxsi maşınlardan istifadə artır.*

*4. Nəqliyyat qadağası kölgə iqtisadiyyatını çiçəkləndirir. Təsəvvür edin ki, şəhərdaxili nəqliyyatın şənbə-bazar toplamalı olduğu vəsaitdən də 3 dəfə çox məbləğ “1 manatlıq” taksilərə qismət olur. Həmin vəsait isə vergidən kənarda qalır.*

**Əsli TELMANQIZI**

# “Ağbulaq” İstirahət Mərkəzində təşkil olunan ənənəvi “Yay məktəbləri” başa çatıb

**Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirak etdiyi sonuncu mərhələ ilə “Ağbulaq” İstirahət Mərkəzində təşkil olunan ənənəvi “Yay məktəbləri” başa çatıb.**

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Emil Səmədov AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində bildirib ki, bu ilin iyul ayından etibarən start götürən düşərgə tipli layihə fasilələrlə 5 dəfə həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, YAP Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunan “Yay məktəbləri”ndə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, könüllü gənclər və kursantlar olmaqla, ümumilikdə 200-dən çox gəncin iştirakı təmin olunub.

**Onun sözlərinə görə, gənclərin səmərəli istirahətini təşkil etməklə onların yeni bacarıqlara, intellektual və innovativ biliklərə yiyələnməsinə, sağlam və vətənpərvər ruhda formalaşmasına zəmin yaratmaq məqsədilə keçirilən hər bir “Yay məktəbi” zəngin proqrama əsaslanmaqla, 3 günlük müddəti əhatə edib. Belə ki, gənclər muxtar respublikada uğurla tətbiq edilən müasir tədris metodu olan STEAM, həmçinin şəxsi inkişaf və karyera istiqamətlərinə kömək olacaq “Gələcək üçün maliyyə” təlimlərində iştirak etmək şansı əldə ediblər. Hər günə gimnastik hərəkətlərlə başlamaq, idman yarışlarının, “Xəmsə”, “Vətəni tanı” və “Axtar tap” kimi müxtəliftipli intellektual oyunların təşkili onların fiziki və zehni inkişafına hesablanıb.**



“Ümummilli lider Heydər Əliyevin Azərbaycanın çiçəklənməsi yolundakı qətiyyətli addımlarından, ümumilikdə həyatı və siyasi fəaliyyətindən bəhs olunan “Dahi şəxsiyyət”, “Xalqa bağışlanan ömür”, həmçinin Vətənimizin bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərin qəhrəman şəhidləri barədə hazırlanan “Poladın 7 anı”, “Səni Vətən çağırır!” sənədli filmləri qalib ölkənin gənclərinə qürurlu anlar yaşadıb”, - deyən Emil Səmədov diqqətə çatdırıb ki, keçirilən yaradıcılıq müsabiqələri, “Gender bərabərliyi”, “Sosial şəbəkələrin cəmiyyətdəki rolu” və “Əlavə peşə bacarıqları” mövzularında aparılan müzakirələr və gənc nəslin müasir dövrlə bağlı fikirlərini, gözləntilərini analiz etmək istedadlı gəncləri kəşf etmək imkanı yaradıb.

Düşərgə zamanı keçirilən konsert proqramları, yumoristik səhnəciklər, stolüstü oyunlar, musiqi və rəqs vaxtları ilə gənclər əyləncəli anlardan da kənarda qalmayıb. Onlar Ağbulaq kəndi ərazisində təşkil olunan gəzintilər vasitəsilə həm bölgənin turizm imkanlarını, ekoloji mühitin təbii imkanlarını kəşf ediblər, həm də çəkdikləri fotoşəkilləri sosial şəbəkələrdə yaymaqla insanları da bu gözəl məkana sövq etməyə çalışıblar. Qeyd edək ki, təşkil olunan hər bir mərhələdə fərqlənən gənclər sertifikat, Fəxri Fərman və hədiyyələrlə mükafatlandırılıblar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi vurğulayıb ki, muxtar respublikamızda uğurla icra olunan dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri də bilikli, bacarıqlı və vətənpərvər gənclərin formalaşdırılmasıdır. Bu baxımdan, gərgin kollektiv əməyi ilə ərsəyə gələn “Yay məktəbləri”ni gənclərin uğurlu gələcəyi üçün hesablanan effektiv dövlət dəstəyi modeli kimi də qiymətləndirmək olar.**

# Şəhidlik zirvəsinin fatehləri

## "Əsgərlərinə "Çıx!" komandası verib, özü səngərdə qalıb şəhid oldu"



**Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, Vətən müharibəsinin şəhidi Hakim Nizam oğlu Bəşirov 1989-cu il martın 2-də İmişli rayonunun Əliyetməzli kəndində anadan olub. Orta təhsilini İmişlidə alan Hakim elə uşaqlığından vətənpərvər olmağı ilə seçilib. Onu tanıyanlar sakit, təmkinli və səbirli olduğunu bilirdilər.**

Vətənə olan sevgisi ailədən qaynaqlanan şəhidimizin əmisi Rövşən Bəşirov da 18 yaşı tamam olmamış ərizə yazıb könüllü 1992-1996-cı illərdə Azərbaycanın bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vətən müharibəsi başlayan ilk gündən R.Bəşirov veteran dostları ilə birlikdə İmişli Rayon Hərbi Komissarlığına yaxınlaşaraq müharibədə iştirak etmək istədiklərini bildirib.

Hakim ailəsinə bağlı idi, Vətənini hədsiz çox sevirdi. İki azyaşlı övladı olmasına baxmayaraq, Vətən müharibəsinə təkidlə qatılmağının vacib olduğunu bildirən Hakim döyüşə yollandığı gün əmisinə zəng edərək "Əmi, mən gedirəm",- deyib. Əmisi də "Hakim, çox keçməz, yanındayam" desə də, ona sözünü tutmaq imkanı verilməyib.

Döyüş yoldaşlarının sözlərinə görə, oktyabrın 20-də Qubadlı uğrunda gedən qızğın döyüşlər zamanı yaralanan Hakim yanında olan əsgərlərinə "Çıx!" komandası verib, özü isə minamyot qəlpəsi nəticəsində elə ordaca şəhid olub.

Hakim Bəşirov oktyabrın 23-də İmişli rayonunun Əliyetməzli kəndində dəfn edilib.

Azərbaycan Ordusunun leytenantı olan Hakim Bəşirovun Vətən müharibəsi zamanı göstərdiyi qəhrəmanlıq bu gün də hərbçi dostları tərəfindən danışılır, xatirəsi ehtiramla yad edilir.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Hakim Nizam oğlu Bəşirov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Ən çətin döyüş tapşırıqlarının öhdəsindən məharətlə gəlirdi



**Məhəmmədəli Bayram oğlu Ələkbərov 1990-cı il oktyabrın 15-də Ağstafa rayonunun Poylu kəndində anadan olub. 1996-2007-ci illərdə Firacəddin Məmmədov adına tam orta məktəbdə təhsil almışdır. 2008-2010-cu illərdə müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ildə Dövlət Sərhəd Xidmətində (DSX) xidmətə başlamışdır. O, xidmət yeri olan Lənkəran sərhəd dəstəsinin 4-cü sərhəd zastavasında çalışqanlığı, xidmətə münasibətilə seçilirdi.**

2015-2016-cı illərdə DSX-nın Tədris Mərkəzində Təlim Çevik Hərəkəti Taborunda müxtəlif vəzifələrdə xidmət edən Məhəmmədəli hər zaman inadla öz üzərində işləmiş, intizamı ilə seçilmişdir. 2019-cu il fevralın 2-də xidmət yerini Çevik Hərəkət Qüvvəllərinin Çevik Hərəkət Dəstəsinə dəyişdirmiş, cəlb olunduğu təlimlərdə bilik və bacarığını təkmilləşdirmişdir. Fiziki cəhətdən sağlam və güclü olan Məhəmmədəli ona verilən ən çətin döyüş tapşırıqlarının öhdəsindən məharətlə gəlirdi.

Sentyabrın 27-də başlayan Vətən müharibəsi sanki Məhəmmədəliyə qazandığı bilik və bacarıqlarını nümayiş etdirməsi üçün bir meydan oldu. Məhəmmədəli Çevik Hərəkət Dəstəsinin tərkibində Füzuli və Cəbrayıl istiqamətlərində bir sıra yaşayış məntəqələrimizin azad olunması uğrunda əməliyyatlarda iştirak etmişdi. İran İslam Respublikası ilə dövlət sərhədlərimizin bərpası zamanı məhz onun fədakarlığı nəticəsində bir neçə halda döyüş yoldaşları mühasirədən çıxarılmış, oktyabrın 19-da Zəngilan şəhərinin azad olunması əməliyyatlarında düşmən postlarının ələ keçirilməsində xüsusilə fərqlənmişdir. Lakin oktyabrın 21-də bir gün əvvəl işğaldan azad olunmuş Zəngilan şəhərinə düşmənin əks-hücumunun qarşısını alarkən Şəhidlik zirvəsinə ucalmışdır.

Oktyabrın 22-də Ağstafa rayonunun Poylu kəndində dəfn edilib. Ailəli idi, 2 övladı Vətənə yadigar qaldı.

**Məhəmmədəli Bayram oğlu Ələkbərov "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Hərbi xidmətlərə görə" medalı, ölümündən sonra isə Prezidentin müvafiq Sərəncamları ilə "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edilmişdir.**

## Arzusu Kərbəlaya getmək olsa da, şəkilləri getdi



**Murad Mahmud oğlu Hüseynzadə 1998-ci il yanvarın 8-də Lənkəran rayonunun Şağlaser kəndində anadan olub. 2 qardaş və 1 bacı olmaqla, ailədə 5 nəfər olublar. Orta təhsilini Lənkəran rayon A.Əsədullayev adına Şağlaser kənd ümumi orta məktəbində alıb. Təhsilini başa vurduqdan sonra Murad Lənkəran Şəhər Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və Naxçıvanda yerləşən "N" saylı hərbi hissəyə yola salınıb. Vətənə olan borcunu şərəflə yerinə yetirdikdən sonra, yəni 2017-ci ildə ehtiyata buraxılıb. Ailəsinə kömək etmək məqsədilə Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasında işləməyə başlayıb.**

II Qarabağ müharibəsi başlanandan bir gün sonra Murad sentyabrın 28-də könüllü olaraq Lənkəran Şəhər Hərbi Komissarlığında qeydiyyatdan keçir və müharibəyə yola düşür. 2016-cı ilin "Aprel döyüşləri"nin iştirakçısı olan Murad bu döyüşdə də böyük şücaətlər göstərir. Bir çox yaşayış məntəqələrinin və yüksəkliklərin düşmən tapdağı altından azad olunması uğrunda vuruşur, düşmənə sarsıdıcı zərbələr endirir və xeyli sayda canlı qüvvəsini məhv edir. Murad oktyabr ayının 21-də Qubadlının Muradxanlı kəndi istiqamətində gedən şiddətli döyüşlərdə ayağından yaralanır, buna baxmayaraq, hospitala getməkdən imtina edir və döyüşə davam edir. Həmin ayın 31-də Laçın dəhlizi istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olur. Lakin nəşi neytral zonada qaldığından bir müddət çıxarmaq mümkün olmur. Nəhayət, noyabrın 11-də doğulub boya-başa çatdığı Şağlaser kəndində kənd qəbiristanlığında böyük izdihamla torpağa tapşırılır.

Muradın ən böyük arzusu Kərbəlayə getmək və orada din şəhidlərimizi ziyarət etmək olub. Lakin o, bu arzusuna nail ola bilmir. Amma onun şəkilləri arzuladığı ziyarətgahda divarlara vurulur.

**Prezident İlham Əliyevin Sərəncamına əsasən, Murad Mahmud oğlu Hüseynzadə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.**

## "Balta" ləqəbli "cənub qartalı" Nihad Babayev



**Nihad Babayev 1991-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 1997-ci ildə Günəşli kənd şəhid Fazil Hökməliyev adına məktəbə daxil olmuş, 5-ci sinfi bu məktəbdə bitirmişdir. Sonra Bakı şəhər Xəzər rayonu Türkan qəsəbəsində yerləşən Elmar Mirzəyev adına tam orta məktəbdə təhsilini əla qiymətlərlə davam etdirmişdi.**

Hərbə böyük marağı olduğundan 2006-cı ildə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verdi. 2008-ci ildə liseydə təhsilini başa vurub Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil oldu, 2012-ci ildə oranı da uğurla bitirdi. 2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təlim keçən Nihad leytenant rütbəsi alaraq Xüsusi Təyinatlı Qüvvələr kursuna yazıldı.

**N.Babayev 2016-cı ildə hərbi ixtisaslaşdırma üzrə təhsil almaq üçün Türkiyəyə yollanmış və kursu müvəffəqiyyətlə başa vurmuşdu. 2018-ci ildə Vətənə dönərək peşəkar zabit kimi xidmətini davam etdirmişdi. Xarici dövlətlərdə xüsusi təyinatlı kurslar keçən Nihad xidməti dövründə bir çox nailiyyətlər əldə etmişdi. Peşəkar snayperçi və kəşfiyyatçı kimi xüsusi əməliyyatlarda iştirak etmiş, yeddiillik xidməti müddətində mayor rütbəsinə qədər yüksəlmişdi. 2020-ci il iyunun 27-də isə kapitan rütbəsinə layiq görülmüşdü. Bundan başqa, Nihad Babayev hərbi hissənin motoatıcı taborunun motoatıcı bölüyünün motoatıcı tağımının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri, hərbi hissənin qərargah və təchizat bölüyünün komandiri, xüsusi təyinatlı bölüyün komandiri, tabor komandirlərinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət etmişdi.**

2018-ci ildə Naxçıvanda baş vermiş "Günnüt əməliyyatı"nda iştirak edən Nihad bir neçə yüksəkliyin alınmasında cəsarət nümayiş etdirmişdi. Ona tapşırılan əməliyyatı uğurla yerinə yetirərək düşmənin bölmə komandirinin hərəkətdə olan avtomobilini və şəxsi heyətini uzaq məsafədən "İstiqlal" snayper silahı ilə məhv etmişdi. Amma Nihad daha böyük qələbə istəyirdi. O bilirdi ki, Azərbaycan Ordusunun da, oğullarının da gücü kifayət qədərdir, onlar düşməni məhv etməyə hazırdırlar. Və inanırdı ki, bir gün o gözlənilən əmr veriləcək, Nihad da bu əmri icra etmək üçün irəli atılacaq.

Və o gün gəldi. Vətən müharibəsinin ilk günlərindən döyüşə getmək üçün komandanlığa dəfələrlə müraciət edən Nihad, nəhayət, döyüş bölgəsinə göndərildi. Onun döyüş yolu Füzulidən başladı. Bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd istiqamətlərində gedən güclü döyüşlərdə iştirak edən kapitan peşəkarlıq nümayiş etdirərək qəhrəmancasına döyüşdü. Hər döyüş tapşırığı uğurla həyata keçirildi.

**N.Babayev iştirak etdiyi bütün əməliyyatları taktiki gedişlərlə, az şəhid verməklə yerinə yetirirdi. Bu, bir xüsusi təyinatlıya xas olan hərəkət idi-az itki ilə böyük əhəmiyyətli yüksəklikləri götürmək. Onun bu bacarığı öz əsgərlərini də ona bənzəməyə vadar edirdi-hamısı ona oxşamağa, onun kimi olmağa çalışırdı. "Balta" ləqəbli "cənub qartalı" Nihad Babayevin təkbaşına onlarla düşməni, hərbi texnikanı məhv etməsi haqqında artıq bütün bölük bilirdi. Nişançı kursunu bitirdiyindən canlı qüvvəni tək-tək məhv edərək bir neçə postun alınmasına nail olurdu.**

Oktyabrın 29-da kapitan Babayev Füzulinin Yuxarı Veysəlli kəndi istiqamətində əlverişli yüksəklik olan Uryandağ yüksəkliyini əldə etmək tapşırığı almışdı. Bu, elə bir yüksəklik idi ki, düşmən oradan rahatca mövqelərimizə nəzarət edə, əsgərlərimizə atəş aça bilirdi. Düşmən əsgərlərimizə irəli addım atmağa imkan vermirdi. Həmin yüksəklik düşməndən təmizlənməli idi ki, Azərbaycan əsgərləri Şuşa və Xocavənd istiqamətinə giriş edə bilsinlər. Bu döyüşün gərgin olacağını Nihad və silahdaşları yaxşı bilirdi. Bu yüksəkliyi əldə etmək qələbəyə daha da yaxınlaşmaq, Qarabağın ürəyi, mədəniyyət beşiyi olan Şuşaya qapıların açılması demək idi. Düşmən də bunu bilirdi. Odur ki, hər vəchlə həmin yüksəkliyi əldən verməməyə çalışırdı, bunun üçün bütün qüvvəsini səfərbər etmişdi.

**Gərgin keçən bu döyüşdə 4 nəfər şəhid olur, Nihad isə sol döş qəfəsindən ağır yaralanır. Lakin buna baxmayaraq, o, döyüşü tərk etmir, yaralı halda 4 saat düşmənlə vuruşur. Nəhayət, onu yaralayan snayperin yerini müəyyən edib vurur. Bundan sonra rahat nəfəs alaraq gözlərini bu dünyaya yumur.**

Atası Akif Babayev deyir ki, oğlu vurulandan sonra bir neçə dəqiqə döyüşə bilib: "Nihad özü peşəkar snayper idi. Həmişə söhbət edəndə yarızarafat, yarıciddi deyirdi ki, məni adi silahlarla öldürmək mümkün deyil, məni ancaq snayper vura bilər. Elə dediyi kimi də oldu...".

**Nihad Akif oğlu Babayev "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, ölümündən sonra isə Prezidentin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Şəhid bir damladır. Damlalar birləşib Şəhidlik zirvəsini yaradırlar



**Böyük Vətən müharibəsində Azərbaycanın şanlı bayrağını Qarabağ üzərində ilk ucaldanlardan biri də Natiq Əlimurad oğlu Verdiyevdir. Natiq 1995-ci il fevralın 5-də Xızı rayonu Xələnc kəndində anadan olub. 9 illik Xızı rayon Xələnc kənd məktəbində təhsil alıb. 2010-cu ildə həmin məktəbi bitirərək Sumqayıt Texniki Kollecində "Kompüter şəbəkələrinin və hesablama texnikasının təmiri və servis xidməti" ixtisası üzrə təhsilini davam etdirib. 2013-2015-ci illərdə Tərtərdə "N" saylı hərbi hissədə xidmət edib.**

"Aprel döyüşləri" uşaqlıqdan qəlbi vətən sevgisi ilə döyünən Natiq üçün başqa bir həyatın başlanğıcı olur. Döyüşkən ruhlu gənc könüllü olaraq orduya qoşulmaq qərarına gəlir və Bakıda 3 ay kurs keçərək, 5 illik müqavilə ilə xidmətə başlayır. İyulun 7-si Naftalana yola düşür. Daha sonra isə Tərtərə gedərək Xüsusi Təyinatlı Qüvvələrdə "kəşfiyyatçı" kimi hərbi qulluğunu davam etdirir.

Natiq bu sənəti seçərkən gec və ya tez şəhid olacağını bilirdi, o günü gözləyirdi. Çünki bu şərəfli zirvə onun ən böyük arzusu, həyat amalı idi.

**Seçdiyi və addım-addım yaxınlaşdığı bu zirvə onu 2020-ci ildə gözləyirdi. Sentyabrın 27-də Vətən müharibəsi başlanan gündən Natiq də öndə irəliləyən döyüşçülərimizdən olur. O və döyüş yoldaşları bununla kifayətlənmir. Belə ki, işğaldan azad etdikləri Murovdağ yüksəkliyinə bayrağımızı Azan sədaları altında sancaraq ilk qələbə sevincini xalqımıza yaşadanlar da elə Natiq və döyüş yoldaşları olur. İşğaldan ilk azad olunan torpaqlar üzərində dalğalanan ilk bayraq artıq onlara əmanət idi. Bu qəhrəman igidlərimiz də çətin şəraitdə, soyuq havada üç gün ac-susuz qalaraq bayrağı müdafiə edirlər. Lakin "Həmlə" taborunun üzvü olan gizir N.Verdiyev oktyabrın 1-də elə o bayrağın müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olur.**

Oktyabrın 3-də Xızı rayon Xələnc kənd qəbristanlığında dəfn edilib.

Qardaşı Famil onun uşaq yaşlarından vətənpərvər olduğunu deyir:

"O, lap uşaq yaşlarından vətənini, torpağını sevən, döyüş ruhlu idi. Hərbi xidmətdən 2015-ci ildə qayıtmağına baxmayaraq, 2016-cı il "Aprel hadisələri"ndən sonra könüllü orduya yazıldı və gizirlik kursu keçib Tərtərdə yerləşən öz hərbi hissəsinə qayıtdı.

Vətənə bir başqa sevgisi vardı. Hətta 2016-cı ildə Xızı rayonu Giləzi qəsəbəsindən şəhid olmuş Ravil Novruzovun 2018-ci ildə qəsəbənin girişinə vurulmuş böyük şəklini görüb deyirdi ki, bax, mənim də belə bir şəklim bizim kəndimizin girişinə vurulacaq. Şəhidliyi bu cür arzulayırdı.

**Qardaşım dininə bağlı insan idi, İslam dininin qanunlarına əməl etməyə çalışırdı. Silah yoldaşlarının sözünə görə, hər döyüşə girəndə də öncə Şəhadət namazı qılıb girərmiş. Sentyabrın 25-də atama yazdı ki, "mənə halallığını ver, vaxta az qalıb". Biz hamımız əvvəldən bilirdik ki, Natiq Şəhidlik yolunu seçib. Bu da onun vətən sevgisindən irəli gəlirdi.**

Müharibə başlayandan hər gün danışırdıq. Hətta oktyabrın 1-i günorta saatlarında da danışdıq. Həmin gün bacıma yazıb ki, "döyüş başlayır, biz gedirik. Haqqınızı halal edin! Qarabağ probleminə son!"

Anası Səyyarə xanım deyir ki, Natiq uşaqlıqdan qoçaq, mərd, hər kəsin köməyinə qaçan idi: "Qohum-əqrəbada, dost-tanışda hələ heç kim deyə bilməz ki, Natiq bu vaxta qədər kiminsə xətrinə dəyib, kimisə incidib. O, cəld, çevik uşaq idi. Özü seçdi bu yolu. Özü istədi və getdi...".

Atası Əlimurad kişi oğlu haqda danışarkən onun Şəhidliyə-o zirvəyə də gülə-gülə getdiyini xüsusi vurğulayır: "Bütün videolarında, şəkillərində gülümsəyir, ən çətin məqamı belə pozitiv qarşılayardı. Hətta sonuncu çəkdiyi videosunda belə "hələ ki, heç birimizə heç nə olmayıb, salamatıq, heç birimizin burnu da qanamayıb" deyərkən necə yüksək əhval-ruhiyyədə olduğunu görmək olur. Natiq sevərək seçdiyi Şəhidlik məqamına da gülə-gülə getdi.

Şəhid bir damladır. Damlalar birləşib Şəhidlik zirvəsini yaradırlar. Natiq də o zirvəni yaradan şərəfli damlalardan biridir".

**Prezident İlham Əliyevin Sərəncamına əsasən, Natiq Əlimurad oğlu Verdiyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

**Səhifəni hazırladı: Aliyə SƏMƏDOVA**

## Beynəlxalq

# Kollektiv danışıqların əhəmiyyəti




**Avropa Həmkarlar İttifaqları Konfederasiyası (ETUC) tərəfindən Avropa Birliyi (AB) məlumatlarının təhlili göstərir ki, kollektiv danışıqlardan faydalanan işçilər ildə ikihəftəlik əlavə ödənişli məzuniyyət əldə edirlər.**

Alman və xorvat işçilər qanunla müəyyən edilmiş minimumdan əlavə daha ongünlük məzuniyyət götürmək hüququna malikdirlər. Onların əmək şəraiti həmkarlar ittifaqları və işəgötürənlər arasında danışıqlar yolu ilə müəyyən edilir.

Daha yeddi Avropa ölkəsində (Danimarka, Fransa, Niderland, Çexiya, Finlandiya, İtaliya və Böyük Britaniyada ) kollektiv müqavilə bağlamış işçilər də əlavə məzuniyyət həftəsi alırlar.

Bütün Avropada kollektiv müqavilələr üzrə məzuniyyətə görə 3 günlük mükafat mövcuddur, bu zaman sazişlərin şamil edildiyi 24,5 gün bütün işçilər üçün 21,5 günlə müqayisədə verilir.

**Həmkarlar ittifaqları bütün işçilərin kollektiv danışıqlardan faydalanmasını təmin etmək üçün AB-yə müraciət edib. Bu da yalnız məzuniyyət ilə bağlı deyil, həm də daha ədalətli əməkhaqqı deməkdir. Bu ayın əvvəlində ETUC milyonlarla avropalının məvaciblərinin az olması səbəbindən birhəftəlik yay tətilini keçirə bilmədiyini ortaya çıxardı. Lakin kollektiv danışıqlardan faydalanan işçilərin sayı AB-yə üzv olan 22 dövlətdə 2000-ci ildən sərt iqtisadi islahatlar nəticəsində azalıb.**

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen AB-nin əməkhaqqı direktivi layihəsi çərçivəsində kollektiv sazişləri gücləndirməyi vəd edib.

**Avropa Parlamenti yay aylarından sonra direktivin layihəsini nəzərdən keçirəcək. ETUC Avropa Parlamentinin deputatları ilə zəruri olan dəyişikliklər üzərində işləyir ki, onlar aşağıdakılardır:**

*-işəgötürənlər həmkarlar ittifaqlarını kollektiv müqavilələrin bağlanması ilə bağlı danışıqlarda saxta "işçilərin nümayəndələri" ilə əvəz edə bilməzlər;*

*-yalnız kollektiv danışıqlar aparmaq hüququna hörmət edən şirkətlər dövlət maliyyələşməsinə çıxış əldə edə bilərlər;*

*-kollektiv danışıqların aparılması hüququ qeyri-standart işçilər və özünüməşğul işçilər də daxil olmaqla, bütün işçilər üçün nəzərdə tutulur.*

**ETUC-un Baş katibinin müavini Ester Linç deyib ki, kollektiv müqavilələr sayəsində bu yay milyonlarla işçi öz ailəsi ilə daha çox vaxt keçirə bilib. Bu isə daha çox ödənişli məzuniyyəti, həmçinin daha ədalətli əməkhaqqı və məşğulluq zəmanətini təmin edir.**

Lakin çox az işçi qısa yay tətilindən istifadə edə bildi, çünki onlar hələ də sərt iqtisadi siyasət və həmkarlar ittifaqlarının məhv edilməsi taktikası nəticəsində kollektiv danışıqların üstünlüklərindən məhrumdurlar.

AB daha qəti tədbirlər görə bilər ki, bütün işçilər kollektiv danışıqlar aparmaq hüququndan istifadə etsin. Eləcə də həmkarlar ittifaqları ilə danışıqlar aparmaqdan imtina edən işəgötürənlərin dövlət maliyyələşdirilməsini dayandıra bilər.

**Ödənişli məzuniyyət hüququ əldə edən həmkarlar ittifaqları işəgötürənlərlə kollektiv danışıqlarda işçilərin yeganə qanuni nümayəndəsidir. Və bu, AB qanunvericiliyində tanınmalıdır.**

# Müəllimə ciddi şəkildə diqqət ayırmaq lazımdır

**Avropada müəllimlərin əksəriyyəti kişilərdir. Ölkəmizdə isə əksinədir. Səbəb nədir? Kişilər niyə təhsil sektoruna üstünlük vermirlər? Kişi müəllimlərinin sayının az olması şagirdlərin mənəvi və psixoloji baxımdan formalaşmasına necə təsir göstərir?**



**Suallarımızı cavablandıran təhsil eksperti Kamran Əsədov dedi ki, bu gün Azərbaycanın 4481 ümumtəhsil məktəbində çalışan 149,602 müəllimin 71%-ni xanımlar, 29 %-ni isə kişi müəllimlər təşkil edir. Orta məktəblərdə kişi müəllimlərin azlığı, üstəgəl, ailədə daha çox ana ilə ünsiyyət şagirdlərin xarakterinin formalaşmasına ciddi təsir göstərir.**

Heç bir oğlandan "müəllim olacağam" sözünü eşitməmişəm". Çünki oğlanlar gördüklərinin inikası olaraq şüuraltı düşünürlər ki, uşaqların tərbiyəsi ilə ancaq qadınlar məşğul olmalıdırlar.

**Ekspert kişilərdə təhsil sahəsinə biganəliyin digər səbəbi kimi əməkhaqqının cəmiyyətin tələbləri səviyyəsində olmaması ucbatından yarandığını söylədi. Bildirdi ki, bu gün müəllimlərin aldığı əməkhaqqı onların aylıq xərclərini ödəmir. Müəllim kimi yeni işə başlayan gənc, təbii ki, bu maaşla dolana bilməyəcəyini başa düşür və müəllimlik diplomunu kənara atıb, normal maaşlı iş axtarmağa məcbur olur. Biz 1980-ci illərə nəzər salsaq görərik ki, bu cinsi bölgü 50/50 vəziyyətində idi. Bəzi bölgələrimizdə isə kişi müəllimlərin say faizi daha üstün idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə baş verən hadisələr, Qarabağ müharibəsi, iqtisadi çətinlik böyük sayda kişi müəllimi bu sahədən uzaqlaşdırdı. 1995-ci ildən, yəni ölkədə sabitlik yarandıqdan sonra da, bu proses davam etdi. Hazırda Bakıdakı orta məktəblərdə fəaliyyət göstərən müəllimlərdən 27 mini qadın, 3600-ü isə kişidir. İş o yerə çatıb ki, paytaxt məktəblərində hətta bədən tərbiyəsi və idman dərslərini də qadın müəllimlər tədris edirlər.**

K.Əsədov dedi ki, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrində uşaq bağçalarında tərbiyəçi qadın yoxdur. Uşaqları yalnız kişilər tərbiyə edirlər. Kişilərin isə verdiyi tədris və tərbiyə uşaqların şəxsiyyət kimi formalaşması prosesinə yanaşmaları fərqlidir. Qadınlar inciməsin, təhsil sistemində kişilərin sayı qadınların sayından üstün olan ölkələrdə təhsilin keyfiyyəti daha yüksəkdir.

**Təhsil eksperti onu da qeyd etdi ki, sovet hakimiyyəti dövründə müəllimin böyük güzəşt və imtiyazları var idi, nəqliyyat xərcləri də daxil olmaqla, digər kommunal ödənişlərdən azad idilər. Dövlət büdcəsinin vəsaiti hesabına hər il istirahət mərkəzlərinə, sanatoriyalara göndərilirdilər. Əlbəttə, sovet hakimiyyəti sosial ölkə idi, indi isə kapitalizm dövrüdür. Lakin bir çox ölkədə müəllimin dövlətin kadr potensialının gücləndirilməsində, formalaşdırılmasında xidmətini nəzərə alaraq, yüksək əməkhaqqı ilə yanaşı, güzəşt və imtiyazlar saxlanılıb.**

Hesab edirəm ki, bu sahəyə yenidən kişi müəllimlərin cəlb edilməsi üçün zəruri olan addımların önündə müəllimlərə dövlət qulluqçusu statusunun verilməsi dayanır. Bundan başqa, müəllimi müəyyən xərclərdən azad etmək lazımdır. Yəni müəllim işıq, qaz, su pulu ödəməkdən azad edilməlidir ki, aldığı az əməkhaqqını sosial rifahına yönəldə bilsin.

**K.Əsədov vurğuladı ki, müəllim gözünün işığını, sağlamlığını xalqın gələcəyinə sərf edir, ona ciddi şəkildə diqqət ayırmaq lazımdır. Çünki ölkənin infrastruktur sahələrində çalışan, hər bir vətəndaşa təhil verən, onları formalaşdıran müəllimdir.**

***Gülöyşə MƏMMƏDLİ***

# Əməyin təhlükəsizliyi və davamlı inkişafın təmin edilməsi yolunda əhəmiyyətli bir qələbə

**Banqladeşdə İndustriALL, UNİ və aparıcı geyim markaları arasında aparılan danışıqlar bu mərhələdə tərəflərin iş yerlərində təhlükəsizliyi təmin etmək üçün əvvəlki hüquqi öhdəliklərini özündə əks etdirən və təhlükəsizlik proqramlarının digər ölkələrə yayılmasını nəzərdə tutan ilkin sazişin bağlanması ilə nəticələnmişdir.**



Yeni sazişə əvvəlki razılaşmanın uğurlu olduğu əsas elementlər, xüsusilə də birləşmək azadlığı hüququna riayət olunması üzrə öhdəliklər; brendlərin və həmkarlar ittifaqlarının qərarların qəbul edilməsi prosesində birgə iştirakı; şəffaflığın yüksək səviyyəsi; əməyin mühafizəsi və təhlükəsizlik komitələri üzvlərinin təlim proqramları və işçilərin məlumatlılığının artırılması; həmçinin şikayətlərə baxılması üçün etibarlı, müstəqil mexanizm daxil edilmiş və inkişaf etdirilmişdir.

**Beynəlxalq sazişin vacib yenilikləri arasında aşağıdakılar var:**

-Yalnız yanğın və bina təhlükəsizliyinə *deyil, ümumiyyətlə, əməyin mühafizəsi və təhlükəsizliyə dair geniş öhdəliklər.*

*-Beynəlxalq sazişin qüvvəsini ilk iki il ərzində ən azı bir ölkəyə şamil etmək öhdəliyi. Texniki -iqtisadi əsaslandırma imzalanandan dərhal sonra başlayacaq.*

*- Davamlı hazır geyim istehsalının inkişafı şurası (RSC) ilə sıx əməkdaşlıq yolu ilə Banqladeşdə əmək və təhlükəsizlik proqramına sadiqlik. İdarə heyətində həmkarlar ittifaqının iştirakı ilə üçtərəfli bir qurum statusunda olmağa davam.*

*-Qlobal marka tədarük zəncirlərində insan haqlarının araşdırılmasını təmin etmək üçün müqavilənin əhatə dairəsini genişləndirmək.*

*-İmza atan markaların sayını artırmaq üçün birlikdə çalışmaq öhdəliyi.*

*-Sazişin şərtlərinə riayət olunmasını təmin etmək üçün əlavə yaxşı təşkil olunmuş arbitraj prosesi.*

İndustriALL Qlobal Birliyinin Baş katibi Valter Sançes bildirib ki, bu beynəlxalq müqavilənin imzalanması tekstil və geyim sənayesində əməyin təhlükəsizliyi və davamlı inkişafın təmin edilməsi yolunda əhəmiyyətli bir qələbədir. Müqavilə şirkətlər üçün hüquqi cəhətdən məcburi olan müddəaları saxlayır və ən əsası, indi onun əhatə dairəsi digər ölkələrə də genişləndi. Ümumi sağlamlıq və təhlükəsizlik ilə əlaqədar olanlar da daxil olmaqla, yeni müddəalar əlavə edildi. İndi tekstil və tikiş şirkətləri öz öhdəliklərini nümayiş etdirməli və yeni beynəlxalq müqavilə imzalamalıdır. Biz bu sahədə fəaliyyət göstərən üzv təşkilatlarımızı, xüsusilə Banqladeş həmkarlar ittifaqlarını təbrik edir, bu sahədə sağlamlıq və təhlükəsizlik müddəalarının hüquqi cəhətdən məcburi xarakter daşımasının tərəfdarıyıq.

**Qeyd edək ki, toxuculuq və tikiş sənayesində əməyin mühafizəsi və təhlükəsizlik haqqında Beynəlxalq Saziş (qısaldılmış beynəlxalq saziş) adlandırılan yeni saziş 1 sentyabr 2021-ci il tarixindən qüvvəyə minir.**

# İş yerlərinin yaradılması

**Pandemiya səbəbindən 200 milyondan çox iş yeri itirilib, daha 100 milyon iş yeri risk altındadır. Böyük əksəriyyəti qadınlardan ibarət çox sayda işsiz, sadəcə olaraq, əmək bazarını tərk edir. Bu il baş tutacaq 7 Oktyabr - Ümumdünya Layiqli Əmək Günündə bütün dövlətlər iş yerlərinin yaradılması planı üzərində işləməyə çağırılacaq.**

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Baş katibi Şaran Barrou bildirib ki, hökumətlərin bir prioriteti olmalıdır - iş yerləri. Bütünlükdə işə, məşğulluğa qayıtmaq lazımdır. Bu, iqtisadi təhlükəsizlik və sosial ədalətin təməlini yaradır.

BHİK-in tələbi 2030 -cu ilə qədər 565 milyon iş yeri açmaq və qeyri-rəsmi iş yerlərinin ən az yarısını rəsmiləşdirmək məqsədi daşıyır. Bu, BMT -nin "Dayanıqlı İnkişaf Məqsədi 8"ə nail olmağın yeganə yoludur və əsasdır.

**Həmkarlar ittifaqları işəgötürənlər və digərləri ilə iş yerlərinin yaradılması və saxlanılması üçün təcili olaraq iddialı hədəflər təyin etməyə çağırır. Və sonra planetin sabit qalması və sıfır karbonlu iqtisadiyyatın təmin edilməsi üçün iqlimə uyğun iş yerləri yaradaraq bu hədəflərə çatmalıdır.**

Həyati əhəmiyyət kəsb edən səhiyyə sektorunda və infrastrukturda məşğulluğa xüsusi diqqət yetirilməlidir. İş istəyimiz xüsusən hökumətlərin az sayda insanın vergidən yayınmaqla yüz milyardlarla dollar qənaət etməsinə icazə verməkdənsə, ədalətli vergi siyasətinə sahib olması halında əldə edilə bilər. Belə gəlir iş yerlərinin açılmasına təkan verə bilər.

Dünya əmək bazarı pozulub. Hökumətlər işi tənzimləyə bilmədi və tam məşğulluq məqsədini gözardı etdi. İş yerləri pandemiyadan əvvəl olduğundan daha təhlükəlidir və bu, insanları artan istismar və etibarsızlıqdan qorumaq üçün qaydaların dəyişdirilməsini tələb edir.

**Yaşamaq məqsədilə digər təhlükəli vasitələr və pandemiya ilə mübarizə apararaq bütün dünyada lazım olan dayanıqlılığı yenidən qurmaq və möhkəmləndirmək üçün iş yerləri tamamilə vacibdir. İş yerlərinin yaradılması hüquqlar, sosial müdafiə, bərabərlik və sair ilə birlikdə yeni sosial müqavilənin mərkəzidir. Ümumdünya Layiqli Əmək Günü "ədalətli iş yerləri" çağırışını gücləndirəcək və kampaniyamızın xülasəsində qeyd edildiyi kimi, qeyri-formallıq böhranından çıxmağa kömək edəcəyik.**




**Materialları hazırladı: Azər MUSTAFAYEV**

# Yaxşı istirahət uğurlu fəaliyyətin əsasıdır



**Azərbaycan Tibb Universitetinin Nabrandakı "Təbib" İstirahət Mərkəzi pandemiya səbəbindən yaranmış birillik fasilədən sonra yenidən qapılarını turistlərin üzünə açdı. İstirahət mərkəzindəki mövcud şərait də göstərdi ki, universitetin rəhbərliyi, həmkarlar ittifaqı təşkilatı vaxtdan səmərəli istifadə edə bilib. Quruculuq və təmir-tikinti işlərini daha geniş miqyasda aparmağı fürsət bilib.**

200 nəfəri birdəfəyə qəbul etmək imkanına malik, ümumi sahəsi 711 kv. metr olan müasir standartlara uyğun yeməkxana binası istifadəyə verilib. Yaşayış evləri, inzibati və xidmət binalarında təmir işləri aparılıb. Ərazi abadlaşdırılıb.

"Təbib" İstirahət Mərkəzində dincəlmiş əməkdaşlarımızın təəssüratlarını öyrəndik.

**Universitetin Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev deyir ki, bu gözəl məkanda ailəlikcə istirahət etdik. İstirahət çox yaxşı təşkil olunmuşdu. Otaqlar təmiz, səliqəli və rahatdır. 24 saat isti və soyuq su ilə təminat var. Yeməklərin keyfiyyətinə də söz ola bilməz.**



**Sanitar-gigiyenik tələblərə əməl edən xoş simalı işçi heyəti nümunəvi xidmət göstərir. Xörəklər bizim istəklərimiz nəzərə alınaraq hazırlanırdı. Bundan əlavə, düşərgənin ərazisində yüksək səviyyəli işlər görülüb. Bütün bunlar turistlərdə yüksək təəssürat oyadıb. Ailə üzvlərimiz adından zəhməti keçən hər kəsə təşəkkürümü bildirirəm. Əgər qismət olsa, gələn il də bizə doğma olan bu məkanda istirahət edəcəyik.**

**Eldar Əliyev (I Cərrahi xəstəliklər kafedrasının professoru):**

-Dəniz yanımızda, meşə yanımızda. İdmanla məşğul olmağa da kifayət qədər vaxtımız qalır. Günlərimiz maraqlı keçir. Bir həkim kimi onu da deyim ki, açıq havada və dənizdə olmaq, tez-tez gəzintiyə çıxmaq uşaqların orqanizminin müqavimətini artırır. Qışda onların xəstələnmək ehtimalı aşağı düşür. Hər şey qaydasındadır.

**Cavanşir Rəhimov (Tibbi və bioloji fizika kafedrasının dosenti):**

**-Sakinlərə gündə üç dəfə yüksək keyfiyyətli, həkim nəzarətindən keçmiş geniş çeşidli yeməklər verilirdi. Yeməyin çeşidi və dadı ən tələbkar qonaqları belə razı salırdı. Düşərgənin Xəzərə yaxın yerləşməsi, ərazinin səfalı olması və təmiz saxlanılması onun dəyərini daha da artırır. ATU-nun Buna görə ATU-nun rəhbərliyinə, HİK-ə dərin minnətdarlığımı bildirirəm.**

Düşərgədə görülən və görüləcək işlərlə bağlı C.Qasımovun da fikirlərini öyrəndik. Bildirdi ki, 2020-ci ildə avadanlıqların saxlanılması üçün anbar inşa edildi. 3 ailənin istirahət edə biləcəyi əlavə 3 otaq tikildi.



**Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımovun diqqət və qayğısını hər an hiss edirdik. O, tez-tez düşərgədə dincələn əməkdaşlarla telefon əlaqəsi saxlayır, düşərgə ilə maraqlanır, dincələnlərin təklif və fikirlərini, iradlarını soruşurdu. Həftəsonu Cahangir müəllim özü şəxsən düşərgədə oldu və hər bir masaya yaxınlaşıb istirahət edənlərin arzu və təkliflərini dinlədi. Bir sözlə, ATU rəhbərliyinin, o cümlədən HİK-in diqqət və qayğısı sayəsində həmişəlik yaddaşa həkk olunan bir istirahət alındı.**

**Müsahibimiz dedi ki, bu mövsümdə istirahət düşərgəsində 84 ailənin, ümumilikdə 336 nəfərin istirahəti təşkil olundu. Məqsədimiz yaxın 1-2 il ərzində otaq sayını kifayət qədər çoxaltmaqdır. Gələcəkdə düşərgənin ərazisində uşaqlar üçün əyləncə yerlərinin inşası, idman qurğularının quraşdırılması və digər xidmət obyektlərinin tikilməsini də nəzərdə tutmuşuq.**

# Hüquq məsləhətxanası

**Əlavə təhsil nədir? Mətbuatda bu ifadəyə tez-tez rast gəlirik. Onun barəsində məlumat verməyinizi xahiş edirəm.**

**Kərəm HƏSƏNLİ, Quba rayonu.**

- "Təhsil haqqında" qanuna əsasən, əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, ali, orta ixtisas və peşə təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır.

Azərbaycan Respublikasında əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:

- ixtisasartırma;
- kadrların yenidən hazırlanması;
- stajkeçmə və kadrların təkmilləşdirilməsi;
- təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili;
- dərəcələrin yüksəldilməsi;
- yaşlıların təhsili.

Əlavə təhsilin məzmunu və təşkili qaydaları xüsusi təhsil proqramlarına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Əlavə təhsil ixtisasartırma və yenidənhazırlanma qurumlarında, təhsil müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə lisenziya verilmiş digər müəssisələrdə həyata keçirilir.

Müvafiq təhsil proqramları əsasında əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada sənəd verilir. İxtisasartırma kurslarını bitirmiş şəxslər barəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir.

**Vergi ödəyicisi olmayan fiziki şəxslərdən hansı mallar nağd alına bilər?**

**Ruslan MƏMMƏDOV, Bakı şəhəri.**

- Vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən aşağıdakı mallar nağd qaydada satın alına bilər:

- kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu;
- əlvan və qara metal qırıntılarının qəbulu;
- utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu;
- utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu;
- xam dərinin tədarükü (alışı).
- əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əməkhaqları (o cümlədən işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlarda nəzərdə tutulmuş hesablaşmalar əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinə şamil edilmir.

**Qardaşım müəllim işləyirdi. Ağır cinayət törətdiyinə görə həbs edilmişdi. Cəzasını çəkib qurtarsa da, məhkumluğu götürülməyib deyə müəllim işləyə bilmir. Bu, düzgündürmü? Başqa kimlər müəllim işləyə bilməz?**

**Lətifə SƏFƏROVA, Bakı şəhəri.**

- "Təhsil haqqında" qanunun 36-1.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının təhsil müəssisələrində müvafiq ixtisas üzrə pedaqoji təhsilə malik olanlar, həmçinin müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli mütəxəssislər Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada pedaqoji fəaliyyətlə məşğul ola bilərlər.

Lakin ağır, xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər. Bundan başqa, aşağıdakı şəxslər də pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilənlər;
- fəaliyyət qabiliyyətsizliyinə və ya məhdud fəaliyyət qabiliyyətli olmasına, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;
- Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıda göstərilən xəstəliklərə görə pedaqoji fəaliyyətlə məşğul olmasına qadağa qoyulmuş şəxslər.

Qeyd edilənlərdən başqa, Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi etik davranış qaydalarını pozduğuna görə əmək müqaviləsinə xitam verilmiş pedaqoji işçi 1 (bir) il müddətində pedaqoji fəaliyyətlə məşğul ola bilməz.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri Təhsil İşçiləri Azad Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aviasiya İşçiləri HİRK-in sədri Mübariz Əsədov və aparat işçiləri AHİK-in Təşkilat işləri və məlumat şöbəsinin mütəxəssisi Səyyarə Salamovaya anası
**SEVİL xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Sumqayıt Şəhər Komitəsinin sədri Xudaverdi Əliyev sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Səbail Rayon Komitəsinin sədri Mükafat Abbasov sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Beyləqan Rayon Komitəsinin sədri Tahir Həsənov sahə Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilova qızı
**SEVİNC xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Beyləqan Rayon Komitəsinin sədri Tahir Həsənov sahə Hİ Yasamal Rayon Komitəsinin sədri
**ELÇİN HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qusar Rayon Komitəsinin sədri Neva Abdurrahmanova sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ İsmayıllı Rayon Komitəsinin sədri Gülər Abdullayeva sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qobustan Rayon Komitəsinin sədri Leyla Sarıyeva sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Ağsu Rayon Komitəsinin sədri Telman Şükürov sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qəbələ Rayon Komitəsinin sədri Malik Ağayev sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Balakən Rayon Komitəsinin sədri Sevda Yusifova sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şəmkir Rayon Komitəsinin sədri Fərhad Cəfərov sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Astara Rayon Komitəsinin sədri Hacıbala Ramazanov sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Lerik Rayon Komitəsinin sədri Dilarə Fətullayeva sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Gədəbəy Rayon Komitəsinin sədri Sona Verdiyeva sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Salyan Rayon Komitəsinin sədri Vəfa Əbilova sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Samux Rayon Komitəsinin sədri Maviyyə Hüseynova sahə Hİ RK-nın aparat rəhbəri
**MİRZƏ ƏLİBƏYOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7687
Sifariş: 1637
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət